BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 Sosial-siyasi elmlər seriyası 2014

UOT 340.1; 321.01

# HÜQUQI AKTLAR VƏ ONLARIN NÖVLƏRİ

**Ü.B.YUSİFOVA**
***Bakı Dövlət Universiteti***
***k.kalb79@box.az***

*Məqalədə hüquqi aktların, habelə onları qəbul edən orqanların (vəzifəli şəxslərin) müxtəlifliyi şəraitində hüquqi aktların ayrı-ayrı növlərinin tədqiqinin vacibliyi qeyd olunur və müxtəlif qəbildən olan hüquqi aktların hüquqi təbiəti və təyinatının fərqliliyinə diqqət çəkilir. Eyni zamanda məqalədə hüquqi aktların əsas əlamətləri, həmçinin normativ və fərdi hüquqi aktların fərqləndirmə meyarları araşdırılır. Qeyd olunur ki, hüquqi aktların sistemləşdirilməsi, habelə qeyri-normativ hüquqi aktların səciyyəvi əlamətlərinin müəyyənləşdirilməsi üçün hüquqi aktların dəqiq elmi təsnifatının aparılması böyük əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** hüquqi, fərdi, normativ, qeyri-normativ, tənzimləmə, akt, qanunvericilik, sərəncam

Müasir dövrdə insanlar öz hüquq və azadlıqları barədə ilkin məlumatı əsasən müxtəlif növ hüquqi aktlar vasitəsilə əldə edirlər. Həmin hüquqi aktların tədqiqi və dəqiq tərifinin verilməsi zamanı ən əvvəl onların ifadələrlə sənədləşdirilməsini və iradi xarakter daşıdığını qeyd etmək lazımdır. Belə ki, şəxslərin daxili, psixi vəziyyətini əks etdirən iradənin təzahürü akt-sənədlər vasitəsilə ifadə olunmaqla məlum hüquqi effekt göstərir. Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 1.0.4-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasında hüquqi aktlar normativ hüquqi aktlardan, normativ xarakterli aktlardan və ya qeyri-normativ hüquqi aktlardan ibarətdir. Müvafiq qanun normativ hüquqi aktların daha yüksək hüquqi qüvvəyə malik olması səbəbindən, normativ xarakterli aktlardan və ya qeyri-normativ hüquqi aktlardan fərqli olaraq, normativ hüquqi aktlarla bağlı məsələləri dəqiq tənzimləyir. Belə ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 1.0.1-ci maddəsinə əsasən, "normativ hüquqi akt tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir" (1).

Beləliklə, normativ hüquqi akt müəyyən edilmiş qaydada dərc olunmuş akt olmaq etibarilə, qeyri-müəyyən şəxslər dairəsi üçün məcburi olan davranış qaydalarını müəyyən edir, təkrar tətbiq edilə bilir, aktla nəzərdə tutulan konkret hüquq münasibətlərinin yaranmasından və ya başa çatmasından asılı olmayaraq qüvvədə olur. Bununla yanaşı, normativ hüquqi akt ümumi xarakterli davranış qaydaları şəklində səlahiyyətli dövlət orqanının hüquqi hökmran iradəsini (göstəriş, qadağa, icazə) əks etdirir. Normativ hüquqi aktın göstərişləri onun təsir dairəsində olan bütün ictimai münasibətlərə tətbiq edilə bilər. Normativ hüquqi aktın qəbulu hüquq normalarının yaradılmasına, dəyişdirilməsinə və ya ləğv edilməsinə yönəlir.

Qeyd etmək lazımdır ki, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 67.4-cü maddəsinə əsasən normativ hüquqi aktın qəbul edilməsi müddətlərinin müəyyənləşdirilməməsi, qəbulunun vacib sayıldığı normativ hüquqi aktın qəbul edilməsi əvəzinə məcburi davranış qaydalarının sərbəst inzibati mülahizə əsasında fərdi hüquq tətbiqetmə aktları ilə əvəzlənməsi yolverilməz hesab olunur.

Hüquq subyeki yalnız elə növ hüquqi akt qəbul edə bilər ki, qüvvədə olan qanunvericilik bunu təsbit etsin. Lakin çox vaxt praktikada müvafiq orqanlar tərəfindən hüquqi aktın formasının sərbəst seçimi bu qaydanın pozulmasına gətirib çıxarır. Deməli hüquqi aktın formasının onu qəbul edən orqanın səlahiyyətlərinə ciddi şəkildə uyğun gəlməsi, onun qanuni və əsaslı olmasının vacib meyarlarından biridir.

Hüquqi aktın rəsmiləşdirilməsi həmçinin onun rəsmi dərcini nəzərdə tutur. Rəsmi dərcin mənası hüquqi aktın mətninin müvafiq mənbədə dərc edilməsi və ya digər vasitə ilə hüquq subyektlərinin nəzərinə çatdırılmasından ibarətdir. Hüquqi aktın dərci dəqiq şəkildə müəyyən edilmiş müddət ərzində həyata keçirilir. Deyilənlər xüsusilə normativ hüquqi aktlara aiddir. Lakin cari qanunvericilik fərdi hüquqi aktlarla bağlı məlumatlandırma tədbirlərinə də böyük əhəmiyyət verir. Belə ki, “İnzibati icraat haqqında” Qanunun 62-ci maddəsinə müvafiq olaraq, inzibati orqan inzibati aktın qəbul edilməsi haqqında maraqlı şəxslərə və ya onların nümayəndələrinə rəsmi məlumat verməyə borcludur. Rəsmi məlumat inzibati aktın maraqlı şəxslərə birbaşa elan edilməsi, təqdim olunması və ya dərc edilməsi yolu ilə verilir. Poçt rabitəsi vasitəsilə ölkə daxilində göndərilmiş inzibati akt, onun poçta təqdim edildiyi gündən 5 gün keçdikdən sonra, elektron üsulla göndərilmiş inzibati akt isə, göndərildiyi gündən 3 gün keçdikdən sonra maraqlı şəxsə təqdim olunmuş sayılır. Lakin nəzərdə tutulmuş qayda maraqlı şəxsin inzibati aktı almadığı və ya gec aldığı hallara şamil olunmur. Maraqlı şəxs inzibati aktı almadığını və ya gec aldığını iddia etdiyi hallarda, aktın ona təqdim olunması faktını və müddətini sübut etmə vəzifəsi inzibati orqanın üzərinə düşür. Məhkəmə aktlarının müvafiq şəxslərə təqdim edilməsi bir qayda olaraq məhkəmə qərarlarının göndərilməsi, yəni işdə iştirak edən tərəflərin ünvanına poçt xidməti vasitəsilə çatdırılması yolu ilə həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin

227.3-cü maddəsində məhkəmə qətnaməsinin işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməsi nəzərdə tutulmuşdur.

Hüquqi aktların və onları qəbul edən orqanların (vəzifəli şəxslərin) müxtəlifliyi şəraitində hüquqi aktların ayrı-ayrı növlərinin bir-birindən dəqiq şəkildə ayrılması vacib məsələdir, çünki onların hər birinin öz təbiəti vardır və öz təyinatı üzrə fəaliyyət göstərir. Xüsusən də, normativ aktları qeyri-normativ aktlardan düzgün şəkildə fərqləndirmədən dövlət orqanlarının akt layihələrini hazırlamaq və tərtib etmək, hüquqi normaları sistemləşdirmək, dərc etdirmək, qanunvericiliyi köhnəlmiş müddəalardan təmizləmək, mövcud qanunvericiliyin uçotunu aparmaq mümkün deyildir.

Ən ümumi halda qeyri-normativ hüquqi aktın mahiyyəti onun "qeyri-normativ" adında təzahür edir, yəni belə hüquqi aktlar yuxarıda göstərilən normativ hüquqi aktın əlamətlərinə malik deyildirlər. Buna əsaslanaraq, normativ aktı qeyri-normativ aktdan fərqləndirən meyarın müəyyən edilməsi mümkün olur. Onların arasında ən mühümü odur ki, qeyri-normativ aktlar fərdi-birdəfəlik, fərdi-müəyyən xarakter daşıyır və əsasən də təşkilati-sərəncamverici məsələlər üzrə qəbul edilir (məsələn, vəzifəyə təyinetmə, rütbənin verilməsi və s.).

Hüquqi aktlar yalnız məzmun baxımından deyil, həmçinin onların qəbul edilməsi, qeydiyyatı və dərc edilməsi qaydasına görə fərqlənirlər. Bu məsələnin aktuallığı, həmçinin cari qanunvericiliyin buna dair fərqli müddəaları ilə də təsdiqlənir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.2-ci bəndinə görə, "yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları onların tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir. Yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları qərar formasında qəbul edilir"(2). Əsasnamənin 6.8-ci bəndinin mətni isə ("Yerli icra hakimiyyətinin başçısı konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədilə və ya digər birdəfəlik tətbiq halları üçün qeyri-normativ hüquqi aktlar qəbul edir. Qeyri-normativ hüquqi aktlar sərəncam və ya əmrlər formasında qəbul edilir") bir daha təsdiq edir ki, cari qanunvericilikdə normativ xarakterli aktlar qeyri-normativ hüquqi aktlar sırasına daxil deyildir.

Adı çəkilən Əsasnamədən fərqli olaraq, Azərbaycan Respublikasının İnzibatı Prosessual Məcəlləsinin 2.2.6-ci maddəsində yalnız "normativ xarakterli aktlar" ifadəsindən istifadə olunur. Həmin maddəyə əsasən, "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla, *normativ xarakterli aktların* (qeyd bizimdir – Ü.Y.) qanunauyğunluğunun yoxlanılmasına dair iddialara (qanunauyğunluq haqqında iddia) inzibati məhkəmə icraatı qaydasında inzibati-iqtisadi məhkəmələr və inzibati-iqtisadi kollegiyalar tərəfindən baxılır"(3). Bununla yanaşı, məhkəmə şikayətinin obyekti qismində təkcə normativ xarakterli hüquq aktları deyil, həm də vətəndaşın hüquq və azadlığını pozan qeyri-normativ hüquqi aktlar ola bilər. Hüquqi

aktların qəbul edilməsi nəticəsində:

- vətəndaşın hüquq və azadlığı pozulduqda;

- vətəndaşın hüquq və azadlıqlarının həyata keçirilməsi üçün maneələr yarandıqda;

- vətəndaşın üzərinə qeyri-qanuni olaraq hər hansı bir vəzifə qoyulduqda və ya o, hər hansı növ məsuliyyətə qeyri-qanuni cəlb olunduqda vətəndaş bilavasitə məhkəməyə və ya tabeçilik üzrə yuxarı orqana (vəzifəli şəxsə) şikayətlə müraciət edə bilər.

Aidiyyəti orqan şikayətin əsaslı olub-olmamasını müəyyənləşdirərək vətəndaşın tələblərinin yerinə yetirməsini təmin edir, onun barəsində tətbiq edilmiş məsuliyyət tədbirlərini ləğv edir və ya hər hansı başqa yolla onun hüquq və azadlıqlarını bərpa edir, həmçinin, vətəndaşın hüquq və azadlıqlarının pozulmasına səbəb olmuş fərdi hüquqi aktı qəbul edən orqanın məsuliyyətini müəyyən edir.

Əgər məhkəmə şikayət olunan hüquqi aktı vətəndaşın hüquq və azadlığını pozmayan, yəni qanuni hesab edirsə, onda şikayətin təmin edilməsindən imtina edir.

Müasir dövrdə cari qanunvericilikdə hüquqi aktların növlərinə və formalarına dair dəqiq ifadələrin istifadə olunması olduqca önəmlidir. Məsələn, Azərbaycan Respublikası Daxili İşlər naziri 19 yanvar 2012-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Yol-patrul xidməti haqqında Təlimat"ın 1.3-cü bəndinə görə "Yol-patrul xidməti öz fəaliyyətində "Polis haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunlarını, Azərbaycan Respublikasının digər qanunlarını, ölkə Prezidentinin *aktlarını,* Nazirlər Kabinetinin qərar və sərəncamlarını, DİN-in qərar, əmr və *göstərişlərini, digər normativ aktların* (qeyd bizimdir – Ü.Y.) tələblərini, eləcə də bu Təlimatı rəhbər tutur". Göründüyü kimi, müvafiq Təlimatda səhvən "normativ aklar" sırasına mahiyyətcə fərdi hüquqi akt olan hüquqi aktlar da daxil edilmişdir. Bununla əlaqədar, həmin Təlimatda "normativ aktlar" sözünün "hüquqi aktlar" sözü ilə əvəz edilməsi məqsədəmüvafiqdir.

Səciyyəvi haldır ki, Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda qeyri-normativ hüquqi aktların bütün növləri qeyd olunmur. "Normativ hüquqi aktlar haqqında" Qanunun 3.3-cü maddəsinə görə qeyri-normativ hüquqi aktlara aşağıdakılar aiddir:

- Azərbaycan Respublikası Milli Məclisinin qərarları;

- Azərbaycan Respublikası Prezidentinin sərəncamları;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamları;

- vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların aktları;

- *konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan digər hüquqi aktlar"* (qeyd bizimdir – Ü.Y.).

Qeyri-normativ hüquqi aktları normativ hüquqi aktlardan fərqləndirən

əlamətlər, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"də də qeyd olunur. Belə ki, həmin Əsasnamənin 1.10-cu bəndinə əsasən "Dövlət Reyestrinə *konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan* (qeyd bizimdir – Ü.Y.) normativ xarakterli aktlar deyil, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş normativ xarakterli aktlar daxil edilir"(4). Lakin əfsuslar olsun ki, həmin aktlar bu Əsasnamədə "qeyri-normativ hüquqi aktlar" kimi deyil, "normativ xarakterli aktlar" kimi qeyd olunub.

Normativ texniki sənədlər, tövsiyə xarakterli çoxsaylı aktlar (metodik göstərişlər, təlimatlar və s.) məcburi hüquqi qüvvəyə malik deyildirlər. Lakin onlar bu halda avtomatik olaraq qeyri-normativ aktlara çevrilmirlər, çünki qeyri-normativ akt müəyyən səbəbə görə konkret subyektə mütləq göstərişlər verir və qətnamə, qərar, əmr, göstəriş və s. şəkildə tərtib olunur.

Belə bir qüsur özünü Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 4-cü fəsilində (Şəhərsalma və tikintiyə dair normativ sənədlər sistemi. Şəhərsalma və tikinti fəaliyyətinin informasiya təminatı sistemi) ifadə edilən normalarda büruzə verir. Məcəllənin həmin fəslində istifadəsi nəzəri cəhətdən əsaslı olmayan "normativ sənədlər" və "texniki normativ hüquqi aktlar" kimi anlayışlara təsadüf edilir. Belə ki, həmin Məcəllənin 9.2-ci maddəsinin dispozisiyasına əsasən "Bu Məcəllədə və digər normativ hüquqi aktlarda müəyyən edilmiş tələblər əsasında şəhərsalma və tikintiyə dair *normativ sənədlərdə* (qeyd bizimdir – Ü.Y.) tikinti ərazilərinin və obyektlərinin yanğından, təbii və ya texnogen xarakterli təhlükəli təsirlərdən mühafizəsi ilə bağlı təhlükəsizlik tədbirləri nəzərdə tutulmalıdır"(5). Göründüyü kimi, burada konkret olaraq "texniki normativ hüquqi sənədlərə" dair tələblər nəzərdə tutulur və onlar maddədə qeyd olunduğu kimi "normativ hüquqi aktlarda müəyyən edilmiş tələblər əsasında" qəbul olunurlar. Fikrimizcə, həmin maddədə "normativ sənədlərdə" ifadəsi əvəzinə "texniki normativ hüquqi aktlarda" və ya "texniki normativ hüquqi sənədlərdə" ifadəsi istifadə olunmalı idi.

Qeyri-dəqiq terminologiyadan, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 19-cü maddəsində ("Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının aktının etibarsız sayılması") istifadə olunur. Həmin maddəyə əsasən, "Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının mülki qanunvericiliyə uyğun gəlməyən, fiziki və ya hüquqi şəxsin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli aktı məhkəmə tərəfindən etibarsız sayıla bilər"(6). Burada, şübhəsiz, "qeyri-normativ xarakterli akt" ın əvəzinə "qeyri-normativ hüquqi akt" ifadəsinin istifadəsi düzgün olardı.

Lakin hər bir halda belə bir müddəanın nəzərdə tutulması böyük əhəmiy-

yət kəsb edir və mülki qanunvericilik sahəsində “Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında” 11 iyun 1999-cu il tarixli Qanunun realizəsi üçün əsaslar yaradır. Belə ki, həmin Qanunun 2-ci maddəsinə əsasən “Vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizlik) barəsində birbaşa məhkəməyə və ya tabelik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayətlə müraciət edə bilər.

Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) vətəndaşların şikayətlərinə məhkəmə tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq baxılır.

Qanunvericilikdə başqa müddət nəzərdə tutulmayıbsa, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, tabelik qaydasında yuxarı orqan şikayətə 1 aydan gec olmayan müddətdə baxmalı, şikayətə baxılmasının nəticəsi barədə həmin orqanın rəhbərliyi vətəndaşa cavab verməlidir”(7).

Lakin müvafiq qərar və hərəkət (hərəkətsizlik) bilavasitə vətəndaşın hüquq və azadlıqlarını pozmursa, həmin müraciətin mülki icraat qaydasında baxılması düzgün hesab edilmir, çünki mübahisələndirilən aktlar müraciət edən şəxsin hüquq və azadlıqlarına toxunmur.

Əgər vətəndaşın iddia etdiyi qərar sırf sərancamverici xarakterə malik, icra hakimiyyəti orqanının funksiyaların bölünməsinə aid olan qeyri-normativ hüquqi aktdırsa, yəni vətəndaşın qanuni hüquq və maraqları ilə bilavasitə əlaqəsi yoxdursa, onun iddia etdiyi tələblərin məhkəmə icraatına qəbul edilməsi üçün əsas ortaya çıxmır.

Beləliklə, məhkəmə normativ hüquqi aktı olduğu kimi qəbul etməsi üçün burada hüquq normalarının mövcudluğu ilə yanaşı onun qəbul edilməsi, qeyd edilməsi, daxil edilməsi və dərc olunması qaydalarına da riayət edilməlidir, normativ texniki aktı normativ hüquqi aktla eyniləşdirmək olmaz.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 122.1-ci maddəsinə əsasən “Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinə uyğun olaraq yoxlanılması Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid edilmiş *normativ xarakterli aktlar* (qeyd bizimdir – Ü.Y.) istisna olmaqla, dövlət və bələdiyyə orqanları tərəfindən qəbul edilmiş normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına və onların etibarsız (qüvvədən düşmüş) hesab edilməsinə dair iddia qaldırıla bilər”(8).

Hesab edirik ki, həmin Məcəllədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid edilmiş aktların *“normativ xarakterli aktlar”* kimi adlandırılması “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanunun 1-ci maddəsinə ziddir. Qeyd olunan maddədə həm normativ hüquqi aktların, həm də *normativ xarakterli aktların* uyğunluğundan bəhs olunduğu üçün onların maddədə “müvafiq hüquqi aktlar” kimi qeyd olunması məqsədəmüvafiqdir. Ümumiyyətlə, normativ xarakterli aktlarla inzibati aktlar arasında

olan daha bir fərqli cəhət ondan ibarətdir ki, birincilər ümumi davranış qaydaları (normativlər) müəyyən edir, ikincilər isə hüquqi faktın bir növü kimi konkret subyektlər üçün hüquq və vəzifələr yaradır, onları dəyişdirir və ya onlara xitam verir.

Hüquqi aktın hazırlanması zamanı onun formasının düzgün seçilməsi vacibdir, çünki o, tənzimləmə obyektini və onun həcmini adekvat şəkildə əks etdirməlidir. "Hüquqi aktın forması" termini ən azı iki məna daşıyır. Birinci halda hüquqi aktın forması dedikdə onun xarici ifadə forması, ikinci halda isə onun adı başa düşülür. Baxdığımız halda "hüquqi aktın" forması termini "hüquqi aktın (növ müxtəlifliyinə) növünə" bərabərdir.

Hüquq ədəbiyyatında "fərdi akt" və "qeyri-normativ akt" anlayışları bir qayda olaraq sinonim kimi ifadə olunur (9, 14). Hesab edirik ki, həmin aktların paralel istifadə edilməsi yanlışlığa yol açır. Onların hər biri konkret təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilsəsi məqsədilə ilə qəbul edilən hüquqi aktları xarakterizə edir və ya digər birdəfəlik tətbiq üçün hesablanmış normativ qismində çıxış etmir.

A.Q.Tikovenko fərdi hüquqi aktın aşağıdakı səciyyəvi əlamətlərini göstərir:

1)fərdi hüquqi akt qanunda dəqiq müəyyən edilmiş unifikasiya formasına (adına) malikdir, hal-hazırda o, hüquqtətbiqi praktikasının bütün subyektləri üçün təfərrüatı ilə təsbit edilmişdir ki, bu da hüquqi mübahisələrin yaranmasına səbəb olur;

2)fərdi hüquqi akt hüquq normaların tətbiqinin rəsmi aktıdır, ayrı-ayrı məsələlər üzrə və ya hüquqtətbiqinin xüsusi səlahiyyətli subyekti tərəfindən (orqan, vəzifəli şəxs) konkret tədbirlərin həyata keçirilməsi məqsədilə qəbul edilir, birdəfəlik icra ilə öz təsirini başa çatdırır;

3)fərdi hüquqi akt iradi hökmran xarakterə malikdir, müəyyən hüquqi nəticələrin əldə edilməsi üçün onu qəbul edən subyektin iradəsini, səlahiyyətinin xüsusiyyətlərini əks etdirir;

4)fərdi hüquqi akt konkret subyektə və ya yalnız müəyyən şəxslər dairəsinə ünvanlanır və konkret hüquqi münasibətlərin qəbul edilməsinə, dəyişdirilməsinə və ya dayandırılmasına səbəb olur (10, 58).

A.A.Travkin fərdi hüquqi aktın çoxsaylı əlamətlərini şərti olaraq dörd qrupa bölür. O, birinci qrupa fərdi hüquqi aktı hüquqi sənədin növ müxtəlifliyi kimi xarakterizə edən əlamətləri aid edir, yəni xüsusi növ sənəddir, spesifik ifadə formasına malikdir, hüquqi aktlar sistemində xüsusi yer tutur və hüququn reallaşdırılmasının növlərindən biridir. İkinci qrupa dərc olunmanın xüsusiyyətlərini və fərdi hüquqi aktın hökmran təbiətini göstərən əlamətlər daxildir, yəni hüquq normaları əsasında qəbul olunmuş prosessual qaydada səlahiyyətli subyektlər tərəfindən hazırlanması və qəbul edilməsinin məcburiliyi aiddir.

Üçüncü qrupu fərdi hüquqi aktın hüquqi keyfiyyətlərini xarakterizə edən aşağıdakı əlamətlər təşkil edir:

- o, rəsmi olaraq iş üzrə qərarı tərtib və təsbit edir;
- onun tərkibinə fərdi göstərişlər daxildir, onlarda adresatların subyektiv

hüquqları və vəzifələri konkretləşdirilir (ictimai münasibətlərin şəxsən müəyyən edilən iştirakçıları);

- o, dəqiq şəkildə ifadə olunmuş təsir hüdudlarına (sahələrinə) malikdir;

- onun reallaşdırılması təşkilati, maddi və digər xarakterli həvəsləndirici və məcburedici tədbirlərin tətbiq edilməsi imkanı ilə təmin edilir;

o, spesifik hüquqi faktdır, ictimai münasibətlərin hüquqi tənzimləmə mexanizmində xüsusi yer tutur.

Nəhayət, A.A.Travkinin mülahizələrinə görə dördüncü qrupa aid edilən fərdi hüquqi aktın sosial-psixoloji keyfiyyətləri, məhz aşağıda göstərilənlərdir: hüququn tətbiqi subyektlərin və iştirakçıların hüquqi davranışının sosial-psixoloji mexanizminin fəaliyyətinin nəticəsidir və insanların, onların kollektivlərinin və təşkilatlarının şüurlu-iradi fəaliyyəti prosesində ictimai həyatın müxtəlif sahələrinin dəyişdirilməsinə yönəlmişdir (11, 11-12).

S.S.Alekseyev düzgün olaraq qeyd edir ki, "hüquq nəzəriyyəsi dərsliklərində və kurslarda normativ aktlar və fərdi aktlar ayrı-ayrılıqda nəzərdən keçirilir: birincilər hüquq mənbəyinin xarakteristikasında, ikincilər isə hüquq münasibətlərində; belə bölgü hardasa özünü doğruldur, xüsusilə də ona görə ki, bir halda akt dedikdə hüququn xarici forması, digərində isə qanuni davranış forması başa düşülür"(12, 193).

Fərdi hüquqi aktlar konkret ictimai münasibətlərin tənzimləmə funksiyasını yerinə yetirir. İctimai münasibətlər ümumilikdə və tam olaraq hüquqla tənzimlənir, lakin real həyatda belə münasibət subyektlərinin və ya obyektlərinin konkretləşdirilməsi tələb olunur. Fərdi hüquqi aktın ümumi tənzimləmə prosesi ilə əlaqəsi yoxdur. O, konkret hadisəyə, vəziyyətə aiddir, yəni konkret hüquqi münasibətin realizəsi ilə əlaqədardır.

Fərdi hüquqi akt səlahiyyətli orqan tərəfindən qoyulmuş qaydada qanunvericilik əsasında qəbul edilən rəsmi hüquqi sənəddir. Qeyd etmək lazımdır ki, cari qanunvericilikdə "hüquqi aktlar" ifadəsi "hüquqi sənədlər" ifadəsindən fərqləndirilir. Məsələn, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində "Milli Məclisin sənədləri" ilə "Milli Məclisin aktları" fərqləndirilir. Belə ki, Daxili Nizamnamənin 30-cu maddəsi "Milli Məclisin aktlarının qəbul edilməsi üçün tələb olunan səs çoxluğu" adlanır və həmin maddəyə əsasən "Azərbaycan Respublikasının Konstitusiyasında və bu Daxili Nizamnamədə başqa qayda nəzərdə tutulmayıbsa, Milli Məclisin aktları 63 deputatın səs çoxluğu ilə qəbul edilir". Bundan fərqli olaraq, Daxili Nizamnamənin "Milli Məclisin sənədlərinin dərc edilməsi" adlanan 53-cü maddəsinin mətnindən parlamentin sənədləri qismində Milli Məclisin qərarları ilə yanaşı, Milli Məclisin iclaslarının protokolları və stenoqramları da qeyd olunur (13).

Sənədin fərdi hüquqi akt kimi nəzərdən keçirilməsi üçün o, aşağıdakı iki əlamətə malik olmalıdır:

1)fərdi hüquqi akt səlahiyyətli orqan tərəfindən ümumi qayda əsasında qəbul edilir;

2)fərdi hüquqi aktlar müəyyən prosedur qaydasında qəbul edilir.

Fərdi hüquqi aktın qəbul edilməsi prosesi bir neçə mərhələdən keçir və onların arasında aşağıdakıları seçib göstərmək olar:

- təşəbbüs mərhələsi – müvafiq aktın dərc olunması ideyasının yaranması. Həmin mərhələdə ilk növbədə səlahiyyətli orqanın aktı qəbul edilir, aktın qəbul edilməsinin zəruriliyi əsaslandırılır (dəyişdirilmə, ləğv etmə), baxılan məsələ üzrə mövcud olan bütün informasiya toplanılır və analiz edilir (qanunvericilik, təlim-metodik materiallar, informasiya məktubları və s. öyrənilir);
- fərdi hüquqi aktın mətninin hazırlanması.

Əksər hallarda müvafiq orqanın (vəzifəli şəxsin) fərdi hüquqi aktlarının tabeçilikdə olan strukturlar və ya vəzifəli şəxslər üçün məcburiliyi əvvəlcədən müəyyən edilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamənin 5.3.6-ci bəndinə əsasən "Azərbaycan Respublikasının Daxili İşlər naziri Nazirlik sistemində icrası məcburi olan əmrlər verir, əsasnamələri, nizamnamələri, təlimatları, qaydaları, standartları, *normaları* və digər normativ hüquqi aktları təsdiq edir, habelə dövlət hakimiyyəti orqanlarının rəhbərləri ilə birlikdə və ya onlarla razılaşdırılmaqla əmrlər, sərəncamlar, göstərişlər verir, onların icrasına nəzarəti təşkil edir"(14).

Qeyd etmək lazımdır ki, hüquq normasının və fərdi hüquqi aktların adresatları müxtəlifdir. Hüquq normasının özünün xarakterindən qeyri-müəyyən şəxslər dairəsinə münasibətdə ümumi davranış qaydaları yaranır. Fərdi hüquqi aktın məcburiliyi hüquq normasının konkret şəxslərə şamil olunmasına gətirib çıxardır, zəruri hallarda normada göstərilən məcburi subyektlərin dar dairəsi ilə məhdudlaşır.

Onların arasında, ilk növbədə, baxılan aktın müvafiq hüquq normasının kimə və ya kimlərə münasibətdə tətbiq edilməsini qeyd etmək lazımdır.

**Birincisi**, ənənəvi olaraq aktın özündə onun adresatları bilavasitə göstərilir. Bu, orada fərdi hüquqi aktın adresatı göstərilmədiyi halda və onu qəbul etmiş orqanın müəyyən edilməsi mümkün olmadıqda, belə akt effektli və işlək olmur.

**İkincisi**, əgər adresat tərəfindən müvafiq vəzifələr yerinə yetirilmirsə, onda fərdi hüquqi aktın icrası müvafiq orqanlar və vəzifəli şəxslər tərəfindən təmin olunur. Nəzərə almaq lazımdır ki, fərdi hüquqi aktın icrasının bu növ təminatçıları bir qayda olaraq orada göstərilmir, çünki onlar qanunvericilik sisteminin digər hüquqi aktlarında əvvəlcədən müəyyənləşdirilmişdir (polis, məhkəmə icraçıları və s.).

**Üçüncüsü**, həmin aktda həll edilən məsələyə orqan və konkret şəxslər aid ola bilərlər. Fərdi hüquqi aktın "üçüncü şəxslərə" münasibətdə ümumi fəaliyyət proqramı qismində çıxış etməsi hüquq nəzəriyyəsində az işlənilmişdir. Bu, xüsusən də aktla hər hansı bir müəyyən hüquq səlahiyyətlərin icrası həvalə edilmiş subyektə (müəyyən qaydada hərəkət etmək səlahiyyətinə malik olan, əmlakın sahibi sayılan və s.) münaisibətdə geniş şəxslar dairəsi üçün nəzərdə tutulan fərdi hüquqi aktlara aiddir.

Aidiyyətli dövlət orqanlarının və ya məsul vəzifəli şəxslərin öz səlahiyyət-

ləri çərçivəsində qəbul etdiyi hüquqi aktları həmin orqanların müvafiq tapşırıqlarından fərqləndirmək lazımdır. Çünki hüquqi aktlardan fərqli olaraq, aidiyyəti dövlət orqanın və ya məsul vəzifəli şəxsin hər hansı tapşırığı yalnız müvafiq hakimiyyət orqanları sistemində mövcud ola bilər. Lakin cari qanunvericilikdə bəzən kobud terminoloji səhvlərə də təsadüf olunur. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 dekabr tarixli 393 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində akkreditasiya olunmuş orqanlar tərəfindən yoxlanılan ölçmə vasitələrinin Siyahısı"nın 17-ci bəndinin adının ("Dövlət orqanlarının ölçmələrin məcburi aparılması barədə qərarlarının icrası üzrə") düzgün göstərildiyi halda, onun 1-ci yarımbəndində istifadə olunan ifadənin ("məhkəmə ekspertizasının həyata keçirilməsində, həmçinin məhkəmə və prokurorluq orqanlarının və *digər dövlət orqanlarının tapşırıqlarının* (qeyd bizimdir – Ü.Y.) yerinə yetirilməsində tətbiq edilən ölçmə vasitələri") (15) qeyri-dəqiqliyini qeyd etmək lazımdır. Fikrimizcə, ölkəmizdə Konstitusiya səviyyəsində hakimiyyət bölgüsü prinsipinin bəyan edildiyi və reallaşdırıldığı bir şəraitdə belə "ikimənalı" ifadələrin işlədilməsi yolverilməzdir.

**ƏDƏBİYYAT**


1. "Azərbaycan" qəz. 2011, 17 fevral, № 37.
2. "Azərbaycan" qəz. 2012, 8 iyun, № 125.
3. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762.
4. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 626.
5. "Azərbaycan" qəz. 2012, 9 sentyabr, № 201.
6. Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2000, № 4, maddə 250.
7. Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 1999, № 7, maddə 398.
8. Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762
9. Дементьев И.В. Индивидуальные налогово-правовые акты: Дис... канд. юрид. наук. Воронеж, 2005, 235с.
10. Тиковенко А.Г. Индивидуальные (ненормативные) правовые акты: характерные признаки / Правовое обеспечение инновационного развития экономики Республики Беларусь: Материалы международной научно-практической конференции (21-22 октября 2010 г.). Минск: Позитив-центр, 2010, с. 56-58.
11. Травкин А.А. Сущность и пределы (сферы) действия правоприменительных актов: проблемы теории и практики: Автореф. дис... канд. юрид. наук. Ярославль, 22с.
12. Алексеев С.С.Общая теория права: В 2 х т. Т.2. М.: Юрид. лит., 1982, 360с.
13. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107.
14. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416.
15. "Azərbaycan" qəz., 2014, 26 dekabr, № 284.

## ПРАВОВЫЕ АКТЫ И ИХ ВИДЫ

**У.Б.ЮСИФОВА**

**РЕЗЮМЕ**

В статье, в первую очередь, отмечается, что в условиях разнообразия правовых актов, а также принимающих их компетентных органов (должностных лиц), важно их четкое отграничение друг от друга, так как каждый из них имеет свою собственную природу и назначение. В этой связи в статье рассматриваются основные признаки правовых актов, а также критерии разграничения нормативных и индивидуальных правовых актов. Отмечается необходимость проведения четкой научной дифференциации правовых актов в целях систематизации правовых актов, а также определения характерных признаков ненормативных (индивидуальных) правовых актов.

**Ключевые слова:** правовой, индивидуальный, нормативный, ненормативный, регулирование, акт, законодательство.

## LEGAL ACTS AND THEIR TYPES

**U.B.YUSIFOVA**

**SUMMARY**

It is noted in the article that there are more variety of legal acts, as well as host of their competent authorities (officials). In this sense, it is important to define distinct difference of legal acts, because each of them has its own nature and purpose. The article discusses main features of legal acts, as well as criteria for distinguishing the normative and individual legal acts. It is noted that a clear scientific differentiation of the legal acts is very important for systematization of legal acts and definition of the characteristic features of non-normative (individual) legal acts.

**Key words:** legal, individual, normative, non-normative, regulation, act, legislation.